# Böyük məktəblilərin peşə seçimində valideynlərin rolu

**Gülər Akif qızı Məmmədova**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** gulermemmedova@list.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. S.Q. Həsənli,
psixol.ü.f.d., dos. L.M. Qurbanova

**Açar sözlər:** peşə, məktəbli, seçim, valideyn, sorğu
**Ключевые слова:** профессия, школьник, выбор, родитель, опрос
**Key words:** occupation, pupil, choice, parent, survey

Gənc nəslin peşəseçməyə hazırlanması problemi hər zaman aktual problemlərdən biri olmuşdur. Lakin, son dövrdə bu problem daha çox qlobal xarakter daşımağa başlamışdır. Bunun da əsas səbəbi elmi-texniki inkişafla bağlı olaraq yeni peşələrin meydana gəlməsi, bir sıra peşələrin isə öz aktuallığını itirməsi yaxud yox olmasıdır. Bu baxımdan şagirdlərin peşə seçməyə psixoloji cəhətdən hazırlıqlı olması çağdaş dövrümüzdə ailə və məktəbin qarşısında duran ən vacib məsələlərdən biridir. Müstəqil həyata öz kövrək addımlarını atan hər bir böyük məktəbli üçün düzgün peşəseçimi taleyüklü bir məsələdir. Peşə hər bir insanın gələcəyini təmin edən ən əsas faktorlardan biridir. Onun seçilməsi zamanı verilən qərar hər bir şəxsin həyatında ən önəmli qərarlardan sayılır. Burada könüllülük və bacarıq anlayışları müştərək dərəcədə əhəmiyyət daşıyır.

Peşəseçimi ilə bağlı psixologiya sahəsində aparılmış çoxsaylı tədqiqatlar mövcuddur. İstər azərbaycanlı psixoloqların, istərsə də xarici mütəxəssislərin apardıqları tədqiqatlarda bu problemlə bağlı maraqlı yanaşmalar nəzərə çarpır. Rus psixoloqu E.A. Klimovun fikrincə, peşəseçimi insanın dünyaya gəlişi qədər onun üçün böyük əhəmiyyət daşıyır. O, peşəseçimini ikinci doğuluş da hesab edir. Onun fikrincə peşəseçimi insanın ictimai mahiyyətinin, insanlar arasında yerinin,işindən razılığının, fiziki və psixoloji sağlamlığının, sevinc və xoşbəxtliyinin təyin edilmsində vacib rol oynayır.

Peşəseçimi ilə bağlı çox ciddi tədqiqatlara ABŞ psixoloqlarının elmi əsərlərində də rast gəlmək olar. Amerika psixoloqu Eli Ginzberqin fikrincə, peşəseçimi özündə müəyyən dövrləri ehtiva edir. O, peşəseçimində qərar vermə dövrünü üç mərhələyə bölüb:

E. Ginzberq birinci dövrü (5-11 yaş arası) fantaziya dövrü adlandırır. Bu yaş dövründə uşaqlar daha çox onlara emosional təsir göstərən peşələrə meyl göstərirlər. Məsələn, polis işçisi, kosmanavt, idmançı, kino aktyoru və s. İkinci dövr 11-16 yaşları əhatə edir. Bu dövrdə məktəblilər peşəseçiminə emosional yox, əqləuyğun, ciddi şəkildə yanaşırlar. Onlar gələcək peşələrini arzulamaqdan daha çox bu haqda düşünməyə başlayırlar. Ətrafda ideal seçdikləri insanların peşələri onlara daha çox cəlbedici  görünməyə başlayır. Üçüncü dövr 16 və yuxarı yaşları əhatə edir. E. Ginzberq bu dövrü həqiqi seçim dövrü adlandırıb. Məktəblilər bu dövrdə peşəseçimində reallığa əsaslanırlar. Böyük məktəblilər bu mərhələdə öz istedad, qabiliyyət, imkanları ilə peşənin tələblərini uzlaşdırmağa və özləri üçün ən optimal yolu tapmağa başlayırlar. Bu dövrün sonunda böyük məktəblilər düşüncədən real fəaliyyətə keçirlər. Məsələn, bəzi peşələrdə özlərini sınamağa başlayırlar.

Psixoloq Solmaz Həsənlinin fikrincə: "*Peşə seçiminin inkişafi prosesi uşaqlıq dövründə*

*bir peşə fikrinin meydana gəlməsindən etibarən gənclik dövründə hər hansı bir peşə sahibi olana qədər keçən inkişaf mərhələlərini əhatə edir. Bu prosesin erkən uşaqlıq çağlarında kiçiklərə yönələn "Böyüyəndə nə olcaqsan?" sualı ilə başladığı qəbul edilir. İnsanın daha kiçik yaşlarından başlayaraq özü və peşələr haqqında gəldiyi müəyyən qənaət və fikir ilə mühitin qarşılıqlı təsiri nəticəsində yaranan peşə qərarı peşəseçiminin inkişafı prosesinin önəmli bir mərhələsi hesab edilir*" (3, s. 27).

Qeyd etmək lazımdır ki, böyük məktəblinin peşəseçimində onun öz imkanlarını düzgün dəyərləndirə bilməsi və iddia səviyyəsi də əhəmiyyət daşıyır. İddia səviyyəsi yüksək olan məktəbli hər peşəni bəyənmir. O, peşələrə seçici münasibət bəsləyir. İddia səviyyəsi yüksək olan məktəbli qarşısına qoyduğu peşəseçiminə nail olmaq üçün qarşılaşdığı çətinlikləri də dəf etmək iqtidarında olur. Onun iddiası həm də məktəbli üçün bir motivasiya mənbəyini təşkil edir. Əlbəttə, əgər bu iddia gerçək imkanlara əsaslanırsa. Belə ki, bəzi hallarda böyük məktəbli öz gerçək imkanlarından kənara çıxır, ona uyğun olmayan iddialarla peşəseçiminə yanaşır. Bu isə son nəticədə böyük məktəblinin peşəseçimində qarşısına qoyduğu məqsədinə çatmaması və ya uğursuzluğa düçar olmasına səbəb olur.

Məktəblilərin peşəseçimində bir sıra prinsiplər də mövcuddur. Bəzi hallarda peşəseçimi ənənəvi, nəsildən-nəsilə ötürülmə prinsipinə əsaslanır. Məsələn, valideynlərdən biri və ya hər ikisi həkim, müəllim, aşpaz və digər peşə sahibidirsə övladlar da onların yolu ilə gedərək həkim, müəllim, aşpaz və s. olur. Digər bir prinsip böyük məktəblinin peşəsi ilə uğur qazanan başqa bir insandan ilhamlanaraq peşə seçməsidir. Bəzən bir insan hər-hansı bir peşədə uğur, cəmiyyətdə nüfuz qazanır, maddi rifah əldə edir və s. Böyük məktəblilərdə elə fikir formalaşır ki, o da bu peşənin sahibi olsa eyni uğurlar əldə edə bilər. Bu zaman onlar "Mənim filankəsdən nəyim əksikdir!" düşüncəsi ilə peşəseçiminə yanaşırlar. Bu zaman onlar sahib olmaq istədikləri peşənin tələblərini deyil, bu peşəyə sahib konkret şəxsin xüsusiyyətlərini özləri üçün əsas müqayisə, ölçü vahidi qəbul edirlər.

Peşəseçiminə bu prinsiplə yanaşma çox zaman uğursuz olur. Belə ki, hər bir peşənin özünəməxsus xüsusiyyətləri mövcuddur. Hər bir peşənin işçidən tələb etdiyi özünəməxsus psixofizioloji xüsusiyyətləri var. Eyni zamanda, hər bir insanın özünəməxsus temperamenti, xarakteri, bilik və bacarığı mövcuddur. Peşə və bu peşəyə sahib olmaq istəyən böyük məktəblinin özünəməxsusluqları nəzərə alınmadan peşəseçimi etmək bir çox hallarda özünü doğrultmur. Məhz bu səbəbdən özünü doğrulda bilməyən gənc həyatı boyu öz yerini tapa bilmədiyinə görə heyfslənir və ya tez-tez iş yerini dəyişir. Bəzən də qəbul imtahanı nəticəsində istədikləri peşəni seçə bilməyən abituriyent məcburən başqa ixtisasa yiyələnməli olur. Bu da gələcək iş fəaliyyətlərində onların motivasiyalarının zəif olmasına səbəb ola bilər.

Peşəseçimi çox mürəkkəb və məsuliyyətli bir prosesdir. Bir tərəfdən böyük məktəblinin psixoloji xarakteri, istək və arzuları davamlı olaraq inkişaf edir, dəyişir. Digər tərəfdən isə sürətlə dəyişən, inkişaf edən cəmiyyətdə peşələrə olan ehtiyac da dəyişikliyə uğrayır. Bu isə məktəblinin peşəseçimində daha effektiv qərar verməsində müəyyən çətinliklər yaradır. Bu dövrdə böyük məktəblinin onun üçün ən optimal peşəseçimində köməyə, ağıllı məsləhətə ehtiyacı olur.

Peşə seçimi eyni zamanda gənc nəslin inkişaf dinamikasına təsir edən vacib bir xüsusiyyətdir. Bu dinamikanın müsbət aparılmasında valideynlərin üzərinə böyük bir məsuliyyət düşür. Bu prosesdə valideynin məsləhəti, şəxsi nümunəsi, həyat təcrübəsi, övladının potensialını üzə çıxardaraq daha da inkişaf etdirməsi böyük önəm kəsb edir. Fərdin şəxsiyyət kimi formalaşmasında, müəyyən yaş dövrlərində peşələrlə tanışlığında valideynlərin böyük təsiri var. Mikro-sosial mühit olan ailədə özünü, həyatı dərk etməyə başlayan böyük məktəbli, bu mü-

hitdə valideynlərinin sahib olduqları peşə və onun xüsusiyyətləri, işinin məzmunu haqqında məlumatlar əldə edir. Ailələrdə peşə ənənələrinin yaranması da bir sıra hallarda bu təsirlərdən yaranır. *"Hələ uşaq dünyaya gəlməmişdən valideyn ona müxtəlif münasibət bəsləyir, onun tərbiyəsi ilə necə məşğul olacağını düşünür, sanki buna hazırlaşır. Uşaq qız olsa, onda zəriflik, qayğıkeşlik, mehribanlıq, oğlan olsa, dözümlülük, mərdlik, cəsarət və s. keyfiyyətlər tərbiyə edəcəyini fikirləşir. Valideynlərin oğlan və qız barədə müxtəlif arzu, istək, fikir və münasibətləri, qayğıları uşaqların tərbiyəsi prosesində də öz əksini tapır"* (1, s. 33).

Azərbaycan xalqının malik olduğu gözəl xüsusiyyətlərdən biri də ailə mühitinin sağlam olmasıdır. Hər bir azərbaycanlı üçün sahib olduğu ailə onun bir ömür boyu qoruduğu, təşəbbüsünü çəkdiyi, bir hissəsi olduğu dəyərlər sistemidir. Bu sistemdə valideynlərin rolu bir sosial missiya xarakterindədir. Hər bir valideyn övladının gözəl tərbiyə almasını, təhsilli olmasını, onu yaxşı peşə, sənət sahibi etməyi özünə bir borc bilir. Daim bu məsuliyyəti düşünən, onun taleyi üçün narahat olan hər bir ata-ana uşaqlarının gələcək peşəsinin müəyyənləşməsində və hətta seçilməsində öz valideynlik borcunu yerinə yetirməyə çalışır.

Peşəseçimində valideynlərin təsir imkanları böyükdür. Amma təcrübə göstərir ki, bəzi valideynlər çox vaxt övladlarının maraq və meyllərini onların xarakterini, psixofizioloji xüsusiyyətlərini nəzərə almadan özlərinin arzuladığı peşələri seçdirməyə çalışırlar. Bu məqamda hələ uşaq ikən rəssamlığa hədsiz marağı olan fransız yazıçısı Antuan De Sönt Ekzüperinin "Balaca şahzadə" əsərində yazdığı xatirəsini qeyd etmək istərdim. *"Çəkdiyim bir nömrəli şəkili, şah əsərimi valideynlərimə göstərdim, onun nə qədər maraqlı olub, olmadığını soruşdum. Onlar mənim çəkdiyim şəkildən bir şey anlamadıqlarını rişxəndlə qeyd edərək, mənə daha dəqiq işlər görməyi, coğrafiya ,tarix, hesab, qrammatika ilə maraqlanmağı məsləhət etdilər. Çəkdiyim şəkillər məni ruhdan saldı. Altı yaşımda ikən gözəl rəssamlıq sənətini mən bax beləcə tərk etdim. Beləliklə mən başqa peşə seçməli oldum və təyyarə sürməyi öyrəndim."*

Övladlarının peşə seçimində valideynlərin rolunu, mövqeyini müəyyən etmək üçün 80 valideynlə (ata və ana) yazılı anket-sorğu keçirildi. Sorğunun nəticəsinə görə qeyd etmək olar ki, bu zaman bir-neçə valideyn modeli müəyyən edildi. Sorğuda iştirak edən valideynlərdən 32 nəfəri övladlarının peşə seçməyə hazırlanması işinə yüksək məsuliyyətlə yanaşdığını, ona böyük əhəmiyyət verdiklərini qeyd ediblər. Onlar övladlarının fənn göstəriciləri və maraqları ilə tanış olmağa çalışırlar. Bu valideynlər övladlarının bacarıqlarını və qabiliyyətlərini inkişaf etdirmələri üçün böyük maraq göstərir, peşə, ixtisas seçmələrini nəzərə alaraq, peşəseçmə sərbəstliyini övladlarının öz ixtiyarına verir və onlara təzyiq göstərmirlər. "*Peşə seçimində yeniyetmə gənclərin fərdi psixoloji xüsusiyyətləri nəzərə alınmalıdır. Qeyd etmək lazımdır ki, yeniyetmələrin temperament tiplərinə uyğun peşə seçimi etməsi həyatda, istehsalatda və cəmiyyətdə onların lazımi uğur qazanmasına səbəb ola bilər*" (5, s. 43). Sorğuda iştirak edən 40 valideyndə isə peşəseçimində yanaşma bir qədər fərqli şəkildədir. Onlar övladlarının peşə maraqlarını, qabiliyyət və bacarıqlarının hansı ixtisasa uyğun gəlməsini nəzərə almayaraq, peşəseçimində qərarı özləri verirlər. "*Bütün valideynlər övladlarını xoşbəxt görmək istəyirlər. Ona görə də onların əvəzindən bütün qərarları özləri qəbul edirlər. Uşağın özünə isə yalnız "sonra", "vaxtı gələndə" qalır"* (2, s. 119).

Burada əsas özünü göstərən hal ondan ibarətdir ki, belə valideynlər ən çox nüfuzlu peşə və ixtisaslara (hüquqşünaslıq, tibb, diplomat, iqtisadiyyat, idarəetmə, biznes və s.) önəm verirlər. Təəssüflər olsun ki, sorğuda iştirak edən valideynlərdən 8 nəfər bildirmişdir ki, onlar övladlarının gələcəkdə sahib olacaqları ixtisas və peşə ilə qəti maraqlanmır və bunun üçün heç bir səy göstərmirlər. Bütün bu proses uşaqların özləri tərəfindən həyata keçirilir.

Sorğuda iştirak edən 80 valideyndən 59-u övladlarını fiziki əmək tələb edən peşələrə deyil

daha çox əqli əmək sahəsində fəaliyyət göstərmələrinə meyl edirlər. Onlar övladları üçün daha asan, rahat gəlirli, həmçinin nüfuzlu peşə axtarır və övladlarının arzusunu deyil daha çox öz maraq və istəklərini önə çəkirlər. Bu zaman onların əsas yanaşma meyarı - "biz valideynlər hər halda öz uşağımıza pis məsləhət verməzik"-fikrinə əsaslanır. 21 valideyn isə övladının fiziki əmək tələb edən peşə sahibi olmasına müsbət yanaşıb. Bu qrup valideynlərin fikrincə fiziki əmək tələb edən peşələrə hər zaman tələbat olur və bu sahədə iş tapmaq, yaxşı maaş almaq mümkündür. Qeyd edilməlidir ki, övladlarının fiziki əmək tələb edən peşəseçiminə razılıq verən valideynlərin hamısı oğlan övladlarının valideynləri idi.

Bildiyimiz kimi, böyük məktəblinin peşəseçimində motivlərin böyük rolu var. Peşə motivləri yalnız peşəseçimində vacib faktor deyil. O, həm də böyük məktəblinin bir şəxsiyyət kimi xarakterik xüsusiyyətlərinin və həyat məqsədlərini müəyyən edən güclü təsir vasitəsidir. Bəzən valideynlərin ailə ənənələrinin davam etdirmə istəyi, övladlarının motivlərinə, maraq və tələbatlarına qarşı etinasızlığı da olur. Bu zaman övladın özünün və valideynlərinin arzusu arasında ziddiyyət yaranır. Peşəseçimini düzgün etməyib, sevmədiyi işdə çalışan insanın faydalılıq əmsalı heç vaxt yaxşı ola bilməz. Hər bir insanın öz sevdiyi, potensialı olan peşədə çalışması daha yaxşıdır. Əks təqdirdə hədəfsiz və ruhsuz bir gənc formalaşır. Nəticədə gəncin beynində xaos yaranır və yaratdığı çətinlikləri aradan qaldırmaq çox çətin olur. Valideynlər çox vaxt övladlarının potensiallarını, bacarıqlarını, komplekslərini nəzərə almadan öz arzu və istəklərinə yönəldirlər. Nəticədə gənc öz ambisiyalarından düzgün istifadə edə bilmir. Qeyd edək ki, əslində valideynlər peşə seçimi prosesində övladlarını məcbur etməməli, yalnız məsləhət verməlidirlər. Ümumiyyətlə peşə seçməmişdən əvvəl yeniyetmə yaşlarında olan travmalar, komplekslər öyrənilməlidir. Bəzən gənc potensialı olmasına baxmayaraq, öz istəyi ilə yiyələndiyi peşədə özünü doğrulda bilmir. Bunun səbəbi isə sosial komplekslərinin olmasıdır. Valideyn ixtisas seçimi zamanı gəncin xarakterini, qabiliyyətini, şəxsiyyətin özünün daxili resurslarını, temperamentini, sosial komplekslərini dəyərləndirə və ya nəzərə ala bilməlidir. Əks halda praktik psixoloqa müraciət edərək bu sahədə psixoloji yardım almalıdır.

Gənclərin seçdiyi peşə gələcəkdə həm onun ailəsini, həm də özünü xoşbəxt etməlidir. Peşəsini özü seçən gənc gələcəkdə işinə daha məsuliyyətli yanaşır. Böyük məktəblilər arasında sıx-sıx rastlaşdığımız problemlərdən biri də onların bu fikirli şikayətləridir: "Mən istəmədiyim qrupu seçərək, sırf valideynlərimin məni görmək istədikləri peşənin arxasınca getməliyəm"; "Onlar məni hüquqşunas peşəsində görmək istəyir. Mən isə tamam əksi, kompüter proqramçısı olmaq istəyirəm"; "Valideynlərim imtahanlarda məndən yüksək bal toplamağımı tələb edir. Ailənin ilkiyəm, ailəmin başını uca etməli və qardaşlarıma nümunə olum deyə yüksək göstərici qazanaraq ən nüfuzu ali məktəbdə təhsil almalıyam"; "Yığdığım balla istədiyim ali məktəbin seçdiyim ixtisasında təhsil ala bilərəm. Lakin təhsilimin ödənişli əsaslarla olacağını və valideynlərimin buna etiraz edəcəklərini düşünərək qərarımı tam fərqli istiqamətdə dəyişməli oldum". "Ailəm mənim təhsil almamı deyil, ailə qurmamı istəyir. Mənim isə ən böyük arzum həkim olmaqdır".

Peşə seçimi insanın həyatında verdiyi ən əhəmiyyətli qərarlardan biridir. *"Həyat planları geniş məfhumdur. Buraya şəxsiyyətin mənəvi siması, həyat tərzi, sərvət meylləri, təhsilini tamamlamaq, fəaliyyət növləri, kəbin kəsdirmək və s. aiddir. Bunların içərisində də ən çətini peşəseçmə, əmək fəaliyyətinə başlamaqdır"* (4, s. 367).

Peşə təkcə pul qazanmaq, dolanışıq məqsədi ilə seçilmir. Bunlardan da əhəmiyyətlisi özünü ifadə etmək, özünü doğrultmaq üçün seçilir. Lakin, bəzi hallarda valideynlər bu anlayışları nəzərə almırlar. Belə ki, sorğuda iştirak edən 80 valideyndən 52-si bu fikirdədir ki, onların övladları üçün ən yaxşı peşə maddi təminatı yüksək olan peşədir. 28 valideyn isə bildirmişdir

ki, onlar üçün maddi təminatdan da öncə övladlarının seçəcəyi peşədə özünü doğrultması, işindən həzz almasıdır.

Peşəseçimi prosesi çox mürəkkəb prosesdir. Hər zaman diqqət mərkəzində saxlanılan bu məsələnin vacib tərəfi böyük məktəblinin peşəseçiminə, qərarına bir çox amillərin təsir etməsidir. Uşağa bir şəxsiyyət kimi formalaşmasına diqqət yetirilən ailələrdə böyük məktəblinin peşəseçiminə təsir göstərən maraq və tələbatın inkişafı daim yüksək səviyyədə olur. Əksinə, uşağını nəzarətsiz buraxan, övladı ilə maraqlanmayan ailələrdə bu proses tam fərqli və çox acınacaqlı halda olur. Peşəseçmə prosesində valideynlər övladlarına dəstək zamanı yalnız peşənin nüfuzu və ya gəliri haqqında düşünməməlidirlər. Bu zaman ən əsas amil böyük məktəblinin sahib olmaq istədiyi peşəsini sevməsidir. Valideynlər övladlarının potensialına uyğun olaraq seçdikləri peşənin onların həyatına təsirinin yalnız müsbət olacağına inandırmağı bacarmalıdırlar. Əgər hər bir insan öz işinin peşəkarı olmaq istəyirsə, bunun üçün özünə ən uyğun olan peşəni seçməlidir. Elə bir peşəni seçməlidir ki, həyatı boyu məşğul olduğu sahədən sıxılmasın və zövq alsın.

**Məqalənin aktuallığı.** Böyük məktəblinin peşəseçimi hər zaman aktual, eyni zamanda məsuliyyətli və vacib problemlərdən biri olmuşdur. Dəyişən, inkişaf edən cəmiyyətimizdə böyük məktəblinin peşəseçimində valideynlərin çox əhəmiyyətli təsir imkanları mövcuddur. Peşə seçimi həm də çoxşaxəli psixoloji mahiyyət daşımaqdadır. Bu problemə dövrün tələbləri səviyyəsində elmi yanaşma psixologiya elminin son on illərdə ən vacib tədqiqat sahələrindən biri sayılır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə əldə olan nəticələr bu mövzu ilə bağlı məlum olan nəzəri biliklər və təcrübə zamanı ortaya çıxan məlumatların ümumiləşdirilməsi ilə əldə edilmişdir. Eyni zamanda, psixoloji yanaşmalarda pedaqogika elminin mövzu ilə bağlı məlumatlarından da istifadə edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən psixoloqlar, pedaqoqlar, eləcə də ali məktəb tələbələri həm elmi tədqiqatlarında, həm də praktik fəaliyyətlərində istifadə edə bilər.

## Ədəbiyyat

1. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. Bakı: Maarif, 1995.
2. Həsənli S. Məktəblərdə peşəseçimində psixoloji rəhbərlik. Bakı: Elm və təhsil, 2014.
3. Əliyev R.İ. Mən. Atam-anam. Sevgilim və övladlarım. Bakı: ADPU, 2019.
4. Qədirov Ə. Yaş psixologiyası. Bakı: Maarif, 2008.
5. Qəhrəmanova Q. Peşə etikası. Bakı: Optimist, 2019.

**Г.А. Мамедова**

## Роль родителей в выборе профессии старшеклассника

## Резюме

Статья посвящена возникающим в процессе выбора профессии основным психологическим трудностям у старшеклассников и проблеме родительской поддержки детей в этом процессе. В статье показано, что правильный выбор профессии старшеклассника - один из важнейших решений в его жизни. Верное направление ребенка для осуществ-

ления им правильного выбора требует большой ответственности от каждого родителя. Результаты исследования значимости роли родителя в процессе выбора профессии у старшеклассников резюмированы в статье.

**G.A. Mamadova**

## The parents role ın the career choıce of a senıor student

## Summary

This article is dedicated to the challenges pupils confront when deciding their future occupations and their parents' support. It is indicated in the article that, right choice of an occupation is one of the most important decisions in the life of a pupil. İt requires the responsibility of the parents to properly direct their children. The roles of parents in this decision are summarized in this article.

**Redaksiyaya daxil olub:** 08.06.2021